**Təsdiq edilmişdir:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

____________________

08.07.2024-cü il

**Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Maliyyə xidmətləri" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Tənzimləmə çərçivəsi** | | | | | |
| **1.1. Kreditləşmə üzrə tənzimləmə çərçivəsi** | | | | | |
| 1.1.1. | Müştəri uyğunluğunun yoxlanılması və məlumatların saxlanılması tələbləri | Mərkəzi Bank tərəfindən Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və ona üzv assosiasiyalar üçün müvafiq indikatorlara dair tələblər, eləcə də bu sahədə ölkəmizdəki mövcud vəziyyət barədə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun və "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"ın tələbləri nəzərə alınmaqla, maarifləndirici tədbirlərin keçirilməsi və bununla bağlı qeyd olunan assosiasiyaların üzvləri tərəfindən sahibkarlıq subyektlərinin məlumatlandırılması | 01.08.2024 (Daha sonra mütəmadi) | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası cəlb edilməklə), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Zaur Hacılı, Yunus Abdulov, Elmar Mirsalayev, Jalə Hacıyeva, Ceyhun Hacıyev, Xaqan Hümmətzadə |
| 1.1.2. | Risk əsaslı yanaşma və risk faktorları | | | | |
| 1.1.3. | Gücləndirilmiş və sadələşdirilmiş müştəri uyğunluğu tələbləri | | | | |

<table>
<tr><td colspan="6">1.2. Təminatlı əqdlər üzrə tənzimləmə çərçivəsi</td></tr>
<tr><td>1.2.1.</td><td>Təminatlı əqdlər üçün inteqrasiya edilmiş hüquqi çərçivə</td><td rowspan="3">Mərkəzi Bank tərəfindən Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və ona üzv assosiasiyalar üçün müvafiq indikatorlara dair tələblər, eləcə də bu sahədə ölkəmizdəki mövcud vəziyyət barədə “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikası Qanununun və “Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları”nın tələbləri nəzərə alınmaqla, maarifləndirici tədbirlərin keçirilməsi və bununla bağlı qeyd olunan assosiasiyaların üzvləri tərəfindən sahibkarlıq subyektlərinin məlumatlandırılması</td><td rowspan="3">01.08.2024<br>(Daha sonra mütəmadi)</td><td rowspan="3">Mərkəzi Bank<br>(Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası cəlb edilməklə),<br>Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası</td><td rowspan="3">Sadiq Axundov,<br>Yunus Abdulov,<br>Elmar Mirsalayev,<br>Jalə Hacıyeva,<br>Ceyhun Hacıyev,<br>Xaqan Hümmətzadə</td></tr>
<tr><td>1.2.2.</td><td>Girov kimi təmin oluna bilən daşınar aktivlərin, borcların və öhdəliklərin növləri</td></tr>
<tr><td>1.2.3.</td><td>Prioritetlik/icra</td></tr>
<tr><td colspan="6">1.3. Elektron ödənişlər üzrə tənzimləmə çərçivəsi</td></tr>
<tr><td>1.3.1.</td><td>Elektron ödənişlər üzrə tənzimləyici çərçivənin mövcudluğu</td><td rowspan="6">Mərkəzi Bank tərəfindən Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və ona üzv assosiasiyalar üçün müvafiq indikatorlara dair tələblər, eləcə də bu sahədə ölkəmizdəki mövcud vəziyyət barədə “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, maarifləndirici tədbirlərin keçirilməsi və bununla bağlı qeyd olunan assosiasiyaların üzvləri tərəfindən sahibkarlıq subyektlərinin məlumatlandırılması</td><td rowspan="6">01.08.2024<br>(Daha sonra mütəmadi)</td><td rowspan="6">Mərkəzi Bank<br>(Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası cəlb edilməklə),<br>Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası</td><td rowspan="6">Kəmalə Qurbanova,<br>Yunus Abdulov,<br>Elmar Mirsalayev,<br>Jalə Hacıyeva,<br>Ceyhun Hacıyev,<br>Xaqan Hümmətzadə</td></tr>
<tr><td>1.3.2.</td><td>Risklərin idarə edilməsi çərçivəsi</td></tr>
<tr><td>1.3.3.</td><td>Müştərilərin vəsaitlərinin qorunması</td></tr>
<tr><td>1.3.4.</td><td>Haqların və şərtlərin şəffaflığı</td></tr>
<tr><td>1.3.5.</td><td>Mübahisələrin həlli və kompensasiya üzrə effektiv mexanizmlərin mövcudluğu</td></tr>
<tr><td>1.3.6.</td><td>Qarşılıqlı fəaliyyət və rəqabətin təşviqi</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.4. Yaşıl maliyyə üzrə tənzimləmə çərçivəsi** | | | | | |
| 1.4.1. | Risklərin idarə edilməsi | 1. İqlim və digər ətraf mühit dəyişikliklərindən yaranan risklərin bankların risk idarəetmə sisteminə (idarəetmə, strategiya və risklərin idarə edilməsi istiqamətləri üzrə) inteqrasiyasına dair təlimatın qəbul edilməsi və bu təlimatın tətbiqi üzrə təlimlərin keçirilməsi | 15.08.2024 | Mərkəzi Bank | Rüstəm Tahirov |
| | | 2. Mərkəzi Bankın nəzarət çərçivəsini tənzimləyən metodoloji sənədlərə iqlim riskinin maliyyə nəzarətinə daxil edilməsi ilə bağlı müvafiq dəyişiklik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 (sonrakı dövrdə icra davam etdirilməklə) | | Rüstəm Tahirov, Leyla Nəbiyeva, Umeyra İbrahimova, Vüsal Qurbanov, Mehriban Məmmədova |
| | | 3. Bazar iştirakçılarından müvafiq məlumatların yığılaraq iqlim, ekoloji, sosial və idarəetmə amilləri üzrə data bazasının yenilənməsi və təhlil edilməsi | İl ərzində | | |
| 1.4.2. | Açıqlama tələbləri və təsir hesabatı | 1. “Yaşıl kredit” anlayışı və belə kreditlər üzrə məlumatların açıqlanması tələblərinin müəyyənləşdirilməsi ilə bağlı “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası”na dəyişiklik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | | Rüstəm Tahirov, Leyla Nəbiyeva |
| | | 2. Yaşıl istiqrazlarla maliyyələşdirilən layihələrə və həmin layihələrin qiymətləndirilməsinə dair qaydalara maliyyələşdirilən layihə üzrə ətraf mühitə təsirin qeyd edildiyi müvafiq təsir hesabatının hazırlanmasının tələb kimi daxil edilməsi | 15.08.2024 | | Umeyra İbrahimova |
| 1.4.3. | Yaşıl maliyyələşmənin mövcudluğu və yaşıl prinsiplərin qəbul edilməsi | 1. Yaşıl kreditlərlə bağlı mövcud tənzimləmə çərçivəsinə beynəlxalq prinsiplərə/standartlara uyğun zəruri dəyişiklik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 15.08.2024 (sonrakı dövrdə icra davam etdirilməklə) | | Leyla Nəbiyeva |
| | | 2. “Yaşıl kreditlər və dayanıqlı maliyyə ilə əlaqəli digər alətlər üzrə təlimat”ın hazırlanması və yaşıl kredit əldə etmək istəyən şəxslər tərəfindən təqdim olunmalı məlumatlara dair tələblərin bu təlimata daxil edilməsi | 15.08.2024 | | Rüstəm Tahirov |
| | | 3. Yaşıl maliyyə fəaliyyətlərinin siyahısını ehtiva edən təsnifat sistemlərinin də əhatə olunduğu yaşıl maliyyə taksonomiyasının ilkin layihəsinin hazırlanması | 01.09.2024 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Rüstəm Tahirov, Leyla Nəbiyeva, Umeyra İbrahimova, Vüsal Qurbanov, Mehriban Məmmədova, Mehdi Həsənov, Rafiq Verdiyev |

## 2. Kredit infrastrukturunda məlumatların əlçatanlığı və maliyyəyə çıxış

### 2.1. Kredit büroları və reyestrlərinin fəaliyyəti

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.1. | Kredit məlumatlarına əlçatanlıq və məlumatların əhatəliliyi | 1. Kredit bürosunun məlumatlarının xarici kredit büroları ilə paylaşılması üzrə yanaşmanın müəyyən edilməsi | 15.08.2024 | Mərkəzi Bank (Azərbaycan Kredit Bürosu cəlb edilməklə) | Fuad İsayev, Elçin Həbibov |
| | | 2. Kredit bürosunun məlumatlarının xarici kredit büroları ilə paylaşılması üzrə müsbət yanaşma formalaşdıqda kredit büroları üçün hüquqi çərçivəni müəyyən edəcək normativ aktların hazırlanması istiqamətində zəruri işlərin görülməsi | | | Fuad İsayev, Mehriban Məmmədova, Elçin Həbibov |
| | | 3. Məlumat təchizatçıları və istifadəçiləri ilə görüşlərin keçirilməsi, müvafiq məlumatlardan istifadə etməklə icra intizamının daha dəqiq qiymətləndirilməsi və risklərin minimallaşdırılması istiqamətində maarifləndirmə işlərinin aparılması | 01.08.2024 (Daha sonra mütəmadi) | | Fuad İsayev, Elçin Həbibov |
| | | 4. Azərbaycan Kredit Bürosunun Türkiyənin Kredi Kayıt Bürosu ilə birgə, bankların təklifləri nəzərə alınmaqla hazırladığı yeni skorinq xidmətinin istifadəyə verilməsi və bu xidmətdən istifadə etməklə mümkün risklərin azaldılması istiqamətində məlumat istifadəçilərinə müvafiq təlimlərin keçirilməsi | 01.08.2024 | | |
| | | 5. Şəxslərin öz kredit tarixçələrini elektron formada əldə edə bildiyi elektron kredit tarixçəsi platforması – Findoc portalı ilə bağlı sosial şəbəkələrdə və mediada press-reliz və xəbərlərin yayımlanması | 01.08.2024 (Daha sonra mütəmadi) | | |
| | | 6. Kredit bürosunun fəaliyyəti, kredit bürosuna təqdim edilən və bürodan alınan məlumatların dairəsi, kredit məlumatlarına əlçatanlıq və məlumatların əhatəliliyinə dair maarifləndirici tədbirlərin keçirilməsi | | | |
| | | 7. Kredit bürosunda verilənlər bazasının və təqdim edilən məlumatların əhatəliliyinin artırılması istiqamətində tədbirlərin görülməsi | Mütəmadi | | |
| | | 8. Mərkəzi Bankın sərəncamında olan Mərkəzləşdirilmiş Kredit Reyestri Sistemində (MKRS) vətəndaşların onlara aid məlumatlara çıxış imkanlarının təşkil edilməsi məqsədilə Mərkəzi Bankın Elektron Xidmətlər Portalında yaradılmış https://accr.e-cbar.az pəncərəsinə dair sosial şəbəkələrdə və mediada press-reliz və xəbərlərin yayımlanması | | Mərkəzi Bank | Sadiq Axundov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.2. Yüklülük reyestrlərinin fəaliyyəti** | | | | | |
| 2.2.1. | Yüklülük reyestrlərinin xüsusiyyətləri | 1. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrində girovların seriya nömrəsi üzrə axtarış funksionallığının yaradılması | 15.08.2024 | Mərkəzi Bank | Sadiq Axundov |
| | | 2. Yüklülük reyestrinin fəaliyyəti ilə bağlı maliyyə sektoru və sahibkarlarla maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, bu tədbirlərin media vasitəsilə işıqlandırılması, TV və radio kanallarda müvafiq təbliğat işlərinin aparılması | 01.08.2024 (Daha sonra mütəmadi) | | |
| | | 3. Yüklülük reyestrində mövcud olan borcalanların adları ilə indeksləşdirilmiş elektron məlumat bazasına dair hazırlanmış videoçarxların media vasitəsilə yayımlanması və bu komponent üzrə maarifləndirmə işlərinin aparılması | | | |
| | | 4. Yüklülük reyestrinin bildiriş əsaslı olması ilə bağlı banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, eləcə də müvafiq konsultasiya şirkətlərinin nümayəndələri üçün maarifləndirici tədbirlərin keçirilməsi, mediada çıxışların edilməsi, eyni zamanda maliyyə yönümlü internet saytlarında reyestr barədə məlumatların yayımlanması | | | |
| | | 5. Yüklülük reyestrinin təminatlı kreditorlara (və ya onların nümayəndələrinə) yüklülük predmetlərini onlayn qeydiyyata almaq, axtarış etmək, düzəliş etmək və ya ləğv etmək imkanı yaradan müasir funksiyaları ilə bağlı məlumatlandırıcı materialların mediada paylaşılması, eləcə də maarifləndirmə tədbirlərində bu imkanlar barədə ətraflı məlumatın verilməsi | | | |
| | | 6. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrində müvafiq yenilənmələrin dərhal əks olunduğuna dair maarifləndirici materialların mediada paylaşılması, eləcə də maarifləndirmə tədbirlərində bununla bağlı ətraflı məlumatın verilməsi | | | |
| | | 7. Yüklülük predmetlərinin reyestrdə qeydiyyatı üzrə rüsumlar və xərclərə dair məlumatların dövri olaraq mediada işıqlandırılması | Hər ay | | |
| | | 8. Yüklülük reyestrindən istifadə səviyyəsi barədə məlumatların (qeydiyyat məlumatlarının həcmi əsasında) mediada paylaşılması | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.3. Yaşıl maliyyə** | | | | | |
| 2.3.1. | Yaşıl kreditlərə dair tələblər | 1. Yaşıl kreditlərin verilməsinin təşviq edilməsi | Mütəmadi | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Fuad İsayev, Yunus Abdulov |
| | | 2. Yaşıl istiqrazların və digər dayanıqlı maliyyə məhsullarının verilməsinin təşviq edilməsi | | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası və Bakı Fond Birjası cəlb edilməklə) | Umeyra İbrahimova, Ruslan Xəlilov, Ceyhun Hacıyev |
| | | 3. Yaşıl istiqrazların buraxılmasında maraqlı olan şirkətlərə banklar və ya fond birjası tərəfindən texniki yardımın verilməsi istiqamətində tədbirlərin görülməsi | | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası və Bakı Fond Birjası cəlb edilməklə) | Umeyra İbrahimova, Fuad İsayev, Ruslan Xəlilov, Yunus Abdulov |
| | | 4. Sığortaçıların iqlim risk növləri ilə bağlı məlumatlılığının artırılması üzrə müvafiq tədbirlərin görülməsi | 15.08.2024 (Daha sonra icra davam etdirilməklə) | Mərkəzi Bank | Vüsal Qurbanov |
| **2.4. Gender maliyyəsi** | | | | | |
| 2.4.1. | Qadınların maliyyəyə çıxışının təşviqi | 1. Kommersiya banklarında qadınlara yönəlmiş maliyyə məhsullarının təqdim edilməsinin və bu istiqamətdə bazar təhlillərinin aparılmasının təşviq edilməsi | Mütəmadi | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Rüstəm Tahirov, Fuad İsayev, Yunus Abdulov |
| | | 2. Kommersiya banklarında qadınlara yönəlmiş qeyri-maliyyə məhsullarının (biznesin inkişafı xidmətləri – məlumatlandırma, təhsil, məsləhət/mentorluq və s.) təqdim edilməsinin (maliyyə məhsullarından ayrı şəkildə, mövcud və yeni qadın sahibkarlara, bankın müştəri olmasından asılı olmayaraq, canlı rejimdə, onlayn və SMS vasitəsilə) təşviqi | | | |
| | | 3. Kommersiya banklarında qadınlara yönəlmiş qeyri-maliyyə məhsullarının əhatə dairəsinin genişləndirilməsi və bu məhsullar barədə məlumatlılığın artırılması | | | |
| | | 4. Kommersiya banklarının rəhbər heyəti və digər aidiyyəti əməkdaşları üçün şüuraltı qərəz/gender müxtəlifliyi mövzusunda təlimlərin keçirilməsi | 01.08.2024 (Daha sonra mütəmadi) | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 5. Bank sektorunda qadınların yuxarı rəhbərlik/idarəetmə mövqelərində, eləcə də digər səviyyələrdə fəaliyyətini təşviq edən proqramların/təşəbbüslərin tətbiqi üzrə tədbirlərin görülməsi, o cümlədən bankların korporativ idarəetmə standartlarında müvafiq dəyişikliklərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2024 (Daha sonra mütəmadi) | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Rüstəm Tahirov, Fuad İsayev, Leyla Nəbiyeva, Yunus Abdulov |
| **3. Praktikada maliyyə xidmətlərinin əldə edilməsinin effektivliyi** | | | | | |
| **3.1. Kreditlər** | | | | | |
| 3.1.1. | Kreditlərin əldə olunmasına sərf olunan vaxt | Kredit təşkilatları tərəfindən verilən kreditlər üzrə vahid nümunələrin hazırlanması və tətbiqi, eləcə də kredit təhlilinin avtomatik işlənməsinin təmin edilməsi üçün bankların daxili imkanlarının təkmilləşdirilməsi | İl ərzində | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Fuad İsayev, Yunus Abdulov |
| 3.1.2. | Kreditlərin əldə olunmasına çəkilən xərclər | | | | |
| 3.1.3. | Təminat hüquqlarının qeydiyyatının səmərəliliyi və kredit məlumatlarının yenilənməsi | 1. Kreditlərin verildiyi və ya bağlandığı andan sonra kredit və yüklülük məlumatlarının dərhal müvafiq olaraq Azərbaycan Kredit Bürosuna və Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinə təqdim edilməsi tələbinin müvafiq normativ aktlarda müəyyən edilməsinin məqsədəuyğunluğuna baxılması | 15.08.2024 | Mərkəzi Bank (Azərbaycan Kredit Bürosu cəlb edilməklə) | Elçin Həbibov, Fuad İsayev, Sadiq Axundov |
| | | 2. Kreditlərin verildiyi və ya bağlandığı andan sonrakı mümkün qısa müddət ərzində kredit və yüklülük məlumatlarının müvafiq olaraq Azərbaycan Kredit Bürosuna və Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinə təqdim edilməsi ilə bağlı məlumat təchizatçıları ilə müvafiq məlumatlandırma və maarifləndirmə işlərinin həyata keçirilməsi | | | |
| 3.1.4. | Kreditlərə çıxış və digər bank xidmətləri üzrə gender fərqləri | Kommersiya banklarında qadınlara yönəlmiş kredit və digər bank xidmətlərinin təqdim edilməsi məqsədilə müvafiq təşviqat işlərinin həyata keçirilməsi | 01.08.2024 (Daha sonra mütəmadi) | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Rüstəm Tahirov, Fuad İsayev, Yunus Abdulov |
| **3.2. Elektron ödənişlər** | | | | | |
| 3.2.1. | Elektron ödənişlərin həyata keçirilməsinə çəkilən xərclər | 1. Elektron ödənişlərin həyata keçirilməsinə çəkilən xərclərin təhlil edilməsi | 15.08.2024 | Mərkəzi Bank | Asif Qasımov, Kəmalə Qurbanova |
| | | 2. Təhlil əsasında əldə edilmiş nəticələrin bençmark ölkələr ilə müqayisə olunması və nəticələrdən asılı olaraq banklara tövsiyələrin verilməsi | 01.09.2024 | | Kəmalə Qurbanova, Asif Qasımov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.2.2. | Elektron ödənişlərin qəbul edilməsi üzrə müddət | 1. Elektron ödənişlərin qəbul edilməsinə sərf olunan vaxtın təhlil edilməsi | 15.08.2024 | Mərkəzi Bank | Kəmalə Qurbanova |
| | | 2. Təhlil əsasında əldə edilmiş nəticələrdən asılı olaraq banklara tövsiyələrin verilməsi | 01.09.2024 | | |
| 3.2.3. | Elektron ödənişlərin qəbul edilməsi üzrə xərclər | 1. Elektron ödənişlərin qəbul edilməsinə çəkilən xərclərin təhlil edilməsi məqsədilə banklar arasında sorğunun keçirilməsi | 15.08.2024 | | |
| | | 2. Təhlil əsasında əldə edilmiş nəticələrdən asılı olaraq banklara tövsiyələrin verilməsi | 01.09.2024 | | |
| 3.2.4. | Elektron ödənişlərin qəbul edilməsi üzrə istifadə səviyyəsi | Bankların POS-terminal şəbəkəsinin aktivliyinin təhlil edilməsi və nəticələri üzrə müvafiq tədbirlərin görülməsi | 15.08.2024 (Daha sonra mütəmadi) | | |
| 3.2.5. | Elektron ödənişlərin edilməsi üzrə istifadə səviyyəsi | Bankların ödəniş kartları və elektron bankçılıq xidmətlərindən istifadə göstəricilərinin təhlil edilməsi və nəticələri üzrə müvafiq tədbirlərin görülməsi | | | |
| 3.2.6. | Elektron ödənişlərdən istifadə üzrə gender fərqləri | Elektron ödənişlərdən istifadə üzrə gender fərqinin olub-olmamasının araşdırılması və nəticələri üzrə müvafiq tədbirlərin görülməsi | | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə) | Rüstəm Tahirov, Kəmalə Qurbanova, Fuad İsayev, Yunus Abdulov |